Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

Mingəçevir Turizm Kolleci

Publik Hüquqi Şəxsi

# QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHANLARIN KEÇİRİLMƏ QAYDALARI

Mingəçevir - 2022

MÜNDƏRİCAT


**I Fəsil. Əsas müddəalar**

Maddə 1. Ümumi müddəalar....................................................................................4

**II Fəsil. Kollecdə qiymətləndirmənin aparılması**

Maddə 3. Seminar, aralıq qiymətləndirmə və yekun imtahanın nəticəsinə əsasən..............................................................................................................4
Maddə 4. V, X, XV həftə sonlarında hər mərhələ üçün 30 bala qədər verilməklə üç dəfə aparılan yoxlamanın nəticəsisında.......................................................................5
Maddə 5. V, X, XV həftə sonlarında hər mərhələ üçün 20 bala qədər verilməklə üç dəfə aparılan yoxlama və yekun imtahanın nəticəsi əsasında..........................................5

III Fəsil. İmtahana hazırlıq mərhələsi

Maddə 6. İmtahan materiallarının hazırlanması......................................................5
Maddə 7. Biliyin qiymətləndirilməsi prosesi, qiymətləndirmə komponentləri və yekun qiymətləndirmə...........................................................................................................6
Maddə 8. İmtahan vərəqələrinin (biletlərin) hazırlanması..........................................7
Maddə 9. Fənnin tədris edildiyi dil və imtahan.........................................................7
Maddə 10. Qeydiyyat və imtahan..........................................................................7
Maddə 11.Təhsil haqqı və imtahan........................................................................8
Maddə 12. Davamiyyət və imtahan.......................................................................8
Maddə 13. İmtahanda iştirak.................................................................................8
Maddə 14. İmtahan cədvəllərinin dərc olunması.......................................................8
Maddə 15. İmtahan vərəqələrinin yazılması və yoxlanılması qaydaları.........................8
Maddə 16. Aralıq qiymətləndirmə və imtahanın davametmə müddəti..........................8
Maddə 17. İmtahan nəticələrinin toxunulmazlığı və əlilliyi........................................8

IV Fəsil. Qiymətləndirmə formaları

Maddə 18. Yazılı qiymətləndirmə forması...............................................................9
Maddə 19. Test qiymətləndirmə forması.................................................................9
Maddə 20. Şifahi qiymətləndirmə forması..............................................................10

---

V Fəsil. İmtahan prosesi

Maddə 21. Ümumi tələblər..................................................................................10
Maddə 22. İmtahanın tarixi, saatı və yeri.............................................................10
Maddə 23. İmtahanda iştirak etmək üçün lazım olan sənədlər..................................11
Maddə 24. İmtahanın keçirilməsinə məsul şəxs......................................................11

Maddə 25. Nəzarətçilər.....11
Maddə 26. Nəzarətçilərin səlahiyyətləri.....11
Maddə 27. Baş nəzarətçi və nəzarətçilərin vəzifələri.....12
Maddə 28. Fənn müəllimi.....13
Maddə 29. İmtahan gedişi.....14

VI Fəsil. Apellyasiya qaydaları

Maddə 30. İmtahan nəticələrinə etiraz.....16

VII Fəsil. Təkrar imtahanlar

Maddə 31. Təkrar imtahanlar.....16

VIII Fəsil. Yekun müddəalar

Maddə 32. İmtahan Qaydalarının həyata keçirilməsi.....17

*Təsdiq edirəm:*

*Mingəçevir Turizm Kollecinin*

*direktoru ______________ Kamal Əhmədov*

*25 noyabr 2022-ci il*

# QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHAN QAYDALARI

## I Fəsil. Əsas müddəalar

**Maddə 1. Ümumi müdəalar**

1.1. Qiymətləndirmə və imtahan qaydaları Mingəçevir Turizm Kollecində imtahanlara hazırlıq və keçirilmə prosesi üçün vahid qaydalar və onların tətbiqi müəyyən edilir.

1.2. Qaydalara əsasən, Mingəçevir Turizm Kollecində keçirilən aralıq qiymətləndirmə və imtahanlara hazırlıq mərhələsi, imtahan prosesi, apellyasiya qaydaları, eyni zamanda imtahan keçirilməsinə məsul şəxslərin səlahiyyət və vəzifələri əhatə olunur.

## Fəsil II. Kollecdə qiymətləndirilmənin aparılması

Mingəçevir Turizm Kollecində qiymətləndirmə qanunvericiliyin tələblərinə uyğun olaraq Maddə 3-də göstərilən şəkildə aparılır. Ancaq qanunvericiliyin tələbləri imkan verdiyi təqdirdə, 4 və ya 5-ci maddələrdəki qiymətləndirmənin təşkili mümkün olacaqdır.

**Maddə 3. Seminar, aralıq qiymətləndirmə və yekun imtahanın nəticəsi üçün imtahan nəticəsi əsasında**

**3.1** Aralıq qiymətləndirmə 8-ci (istisna hallarda 7 və ya 9-cu) tədris həftəsində keçirilir və bu qiymətləndirmənin nəticəsində tələbə 0 – 30 bal toplaya bilər;

**3.2** Yekun imtahanda tələbə 0 – 50 bal toplaya bilər;

**3.3** Tələbə seminar dərslərindən 0 – 20 bal toplaya bilər;

**3.4** Hər hansı bir fəndən üzürsüz olaraq 25% və ondan çox dərsə iştirak etməyən tələbə yekun imtahana buraxılmır;

**3.5** Bal bölgüsü 20 bal (seminar) + 30 bal (aralıq qiymətləndirmə) + 50 bal (yekun qiymətləndirmə) = 100 bal şəklində aparılır və müvafiq fənn üzrə semestr (tədris ili) ərzində toplanmış balların yekun miqdarına əsasən tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

- qeyri-kafi – 50 baldan aşağı (50 bal daxil olmaqla);
- qənaətbəxş – 51 – 60;
- kafi – 61 – 70;
- yaxşı – 71 – 80 bal;
- çox yaxşı – 81 – 90 bal;
- əla – 91 – 100 bal hesab olunur.

Diplom əlavəsi və transkriptlərdə tələbələrin fənlər üzrə qazandıqları ballar qeyd olunmalıdır.

**Maddə 4. V, X, XV həftə tamamında hər mərhələ üçün 30 bala qədər verilməklə üç dəfə aparılan yoxlama nəticəsi əsasında**

**4.1.** Qiymətləndirmənin bu qayda ilə icrası yekun imtahan olmadan həyata keçirilir və qiymətləndirmə prosesi imtahan sessiyası başlayana qədər yekunlaşır;

**4.2.** 90 bala qədər 3 yoxlamanın nəticəsinə əsasən, 10 bala qədər isə fənn müəllimi tərəfindən tələbənin gündəlik fəaliyyəti nəzərə alınmaqla qiymətləndirilir. Beləliklə, bal bölgüsü 30 + 30 + 30 + 10 = 100 kimi olur;

**4.3.** Tələbə semestr ərzində üzürsüz səbəbdən 30 saatlıq dərsin 2 qoşa saatında, 45-60 saatlıq dərsin 3 qoşa saatında, 75-90 saatlıq dərsin 4 qoşa saatında, 105-120 saatlıq dərsin 5 qoşa saatında iştirak etmədiyi halda müəllimi verəcəyi gündəlik fəaliyyət balından məhrum olur. İmtahanda iştirak etmək hüququ saxlanılır;

**4.4.** Hər hansı bir fəndən üzürsüz olaraq 25% və ondan çox dərs buraxan tələbə imtahanaburaxılmır;

**4.5.** Tələbə V, X, XV həftə təşkil olunacaq hər 3 yoxlama mərhələsində iştirak etməlidir, əks halda o, müvafiq fəndən qeyri-müvəffəq hesab olunacaq.

**Maddə 5. V, X, XV həftə tamamında hər mərhələ üçün 20 bala qədər verilməklə üç dəfə aparılan yoxlama nəticəsi əsasında**

**5.1.** Bu üsulla qiymətləndirmədə yekun imtahan üçün maksimum 30 bal nəzərdə tutulur. Tələbə 10 bala qədər fənn müəllimi tərəfindən gündəlik fəaliyyəti nəzərə alınmaqla qiymətləndirilir. Beləliklə, bal bölgüsü 20 + 20 + 20 + 10 + 30 = 100 kimi olur;

**5.2.** Tələbə yekun imtahana qədər kredit toplayır və öz arzusu ilə yekun imtahanda iştirak etməyə bilər;

**5.3.** Tələbə yekun imtahanı keçirərkən 70 bal toplaya bilər;

**5.4.** Tələbə semestr ərzində üzürsüz səbəbdən 30 saatlıq dərsin 2 qoşa saatında, 45-60 saatlıq dərsin 3 qoşa saatında, 75-90 saatlıq dərsin 4 qoşa saatında, 105-120 saatlıq dərsin 5 qoşa saatında iştirak etmədiyi halda müəllimin verəcəyi gündəlik fəaliyyət balından məhrum olur. İmtahanda iştirak etmək hüququ saxlanılır;

**5.5.** Hər hansı bir fəndən üzürsüz olaraq 25% və ondan çox dərs buraxan tələbə imtahana buraxılmır;

**5.6.** Tələbə V, X, XV həftə təşkil olunacaq hər 3 yoxlama mərhələsində iştirak etməlidir, əks halda o, müvafiq fəndən qeyri-müvəffəq hesab olunacaq.

## III Fəsil. İmtahana hazırlıq mərhələsi

**Maddə 6. İmtahan materiallarının hazırlanması**

**6.1.** Mingəçevir Turizm Kollecində imtahanlar fənnin xüsusiyyətindən asılı olaraq yazılı, test və şifahi formalarda həyata keçirilə bilər;

**6.2.** Müəllim heyəti ümumi imtahan sual siyasətini müvafiq təlimata əsasən Fənn Birləşmə Kafedralarında hazırlayır və Fənn Birləşmə Komissiyalarının rəhbəri tərəfindən təsdiq edilir. Fənn Birləşmə Komissiyalarının rəhbəri və üzvləri imtahan suallarının təlimata əsasən məzmun və formaya uyğunluğunu təmin edərək, İmtahan Qərargahına təqdim edir;

**6.3.** Eyni ixtisasda fənn üzrə imtahan sualları müəllimdən və tədris dilindən asılı olaraq fərqli formada tərtib oluna bilməz;

**6.4.** Müəllim imtahan suallarını müvafiq təlimata əsasən və imtahan variantları (biletləri) formasında tərtib edib, FBK rəhbərinə təqdim edir. FBK rəhbəri imtahan variantlarını (və ya biletləri) təlimata uyğunluğunu təmin edərək, İmtahan Qərargahına təqdim edir;

**6.5.** İmtahan Qərargahı imtahan variantlarının (və ya biletlərin) strukturu ilə əlaqədar problem olarsa, düzəliş üçün müvafiq kafedra müdirini məlumatlandıraraq, variantları kafedraya geri göndərir;

**6.6.** İmtahan variantları içərisində təsadüfi seçilmiş variantların (və ya biletlərin) imtahanda istifadə olunmaları üçün tələbə sayına uyğun olaraq kafedra tərəfindən hazırlanır, müvafiq zərflərə qoyularaq möhür və ya ştamp vurulub dekanlığa təhvil verilir (elektron imtahan istisnadır);

**6.7.** İmtahan suallarının əvvəlcədən tələbələrə verilməsi qəti qadağandır;

**6.8.** Yazılı aralıq qiymətləndirmə cavab vərəqləri cari semestrin yekun imtahanına qədər və yekun imtahan cavab vərəqləri imtahan aparılan tarixdən etibarən bir semestr müddətində saxlanılır, sonradan onlar aktlaşdırılaraq məhv edilir (elektron imtahan istisnadır).

**Maddə 7. Biliyin qiymətləndirilməsi prosesi, qiymətləndirilmə komponentləri və yekun qiymətləndirilmə**

**7.1.** Tələbələrin bilik səviyyəsi 100 ballıq qiymətləndirmə sistemində müxtəlif komponentlər də nəzərə alınmaqla, imtahana qədər və imtahanda toplanan ballarla formalaşır. Müvəffəqiyyət balı ən azı 51 baldır. Bu baldan az bal toplayan tələbələr qeyri-müvəffəq hesab olunur. Qiymətləndirmənin nəticələrinin qeydiyyatı üçün tyutor (akademik məsləhətçi) tərəfindən hər bir fənn üzrə qiymət cədvəli tərtib edilir;

**7.2.** İmtahandan sonra tələbələrin cavab vərəqləri həmin gün İmtahan Qərargahı əməkdaşları tərəfindən şifrlənir (elektron imtahanda sistem tərəfindən şifrələnir);

**7.3.** Cavablar 3 (üç) iş günü ərzində yoxlanıb qiymətləndirildikdən sonra şifrlər açılır. Tyutorlar (akademik məsləhətçi) qiymətləri tələbələrə əliçatan edir, hər bir fənn üzrə qiymət cədvəlini çap edir və imzalayır. Bundan sonra qiymət cədvəlləri fənn müəllimi tərəfindən imzalanır, əsli ilin sonunda AKT tərtib olunaraq Arxiv bölməsinə təhvil verilir və orada saxlanılır (elektron imtahanda sistem tərəfindən məlumatlar ötürülür);

**7.4.** 100 ballıq qiymətləndirmə sisteminin imtahana qədər olan fəaliyyətlə bağlı ayrı-ayrı komponentlərin (aralıq və seminar qiymətləndirməsi) sillabusa uyğun olaraq tələbə məlumat sistemində bal bölgüsü aparılır. Ayrı-ayrı komponentlərin nəticələri yekun imtahandan əvvəl elektron və kağız jurnalda, o cümlədən elektron qiymət cədvəlində qeyd edilməlidir;

**7.5.** Qiymətləndirməyə daxil olan bütün komponentlər qiymətləndirilməlidir. Tələbənin dərsə davamiyyəti ümumi dərs saatının 75%-dən az olduqda yekun imtahana buraxılmır.

Davamiyyətin hesablanması yalnız müəllim tərəfindən elektron və ya kağız dərs jurnalındakı qeydləri əsasında olmalıdır;

**7.6.** Yekun imtahanında toplanan balların cəmi 17-dən az olmamalıdır. Əks halda tələbə müvafiq fəndən qeyri-müvəffəq hesab olunur;

**7.7.** Ayrı-ayrı komponentlər də nəzərə alınmaqla, yekun qiymət fənnin qiymət cədvəlində qeyd edildikdən sonra nəticələr həmin gün elan edilir;

**7.8.** Nəticələr elan edildikdən sonra qiymət cədvəlində hər hansı bir dəyişikliyin edilməsi qəti qadağandır.

**Maddə 8. İmtahan vərəqələrinin (biletlərin) hazırlanması**

**8.1.** İmtahan tapşırıqları kompüterdə yığılmalı, orfoqrafik cəhətdən səhvsiz olmalıdır. İmtahan sual vərəqələri (biletləri) çoxaldılarkən hər bir nüsxənin səliqəli və oxunaqlı olması təmin edilməlidir (elektron imtahan sistemində imtahan tapşırıqları avtomatik olaraq hazırlanır).

**8.2.** İmtahan sual vərəqlərinin (biletlərinin) hər bir variantında aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

- fakultənin adı;
- kafedranın adı;
- fənnin adı;
- ixtisasın adı;
- müəllimin adı;
- semestr;
- aralıq qiymətləndirmə və ya yekun imtahanın sözlə qeyd olunması;
- imtahana ayrılan ümumi balın miqdarı;
- imtahanın davametmə müddəti;
- imtahanda əlavə materiallardan (kitab, lüğət, kalkulyator, cədvəllər, qrafiklər və s.) istifadə olunması (əgər nəzərdə tutulursa);
- imtahan sualları (hər bir suala ayrılan bal qeyd olunmaqla).

**8.3.** Kafedra və İmtahan Qərargahı imtahanda hansı variantlardan istifadə olunmasını müəyyənləşdirir və qrupdakı tələbələrin sayına uyğun olaraq imtahan tapşırıqlarının çap olunmasını kafedra təşkil edir. Hər bir imtahan vərəqi fənn müəlliminin imzası ilə təsdiq olunmalıdır (elektron imtahan sistemində imtahan tapşırıqları çap olunmur);

**8.4.** Yekun imtahan vərəqələri İmtahan Qərargahının ştampı və ya Ümumi şöbənin möhürü ilə təsdiqlənir.

**Maddə 9. Fənnin tədris edildiyi dil və imtahan**

İmtahan fənnin tədris edildiyi dildə aparılır (əsaslandırılmış istisnalar ola bilər).

**Maddə 10. Qeydiyyat və imtahan**

Tələbə fərdi tədris planında qeyd olunmayan fəndən imtahan (təkrar imtahan istisna olmaqla) verə bilməz.

**Maddə 11. Təhsil haqqı və imtahan**

Təhsil haqqını götürdüyü kreditlərin sayına uyğun olaraq tam ödəməyən tələbə yekun imtahana buraxılmır.

**Maddə 12. Davamiyyət və imtahan**

Hər hansı bir fəndən 25% və ondan çox dərs buraxan tələbə imtahana buraxılmır və həmin fənni yenidən təhsil haqqı ödəməklə təkrar dinləməlidir.

**Maddə 13. İmtahanda iştirak**

Tələbələr imtahan cədvəlinə uyğun olaraq imtahanda iştirak etməlidirlər. Tələbə imtahanda iştirak etməmişdirsə, imtahan qeydiyyat vərəqəsində "gəlmədi" yazılır. Yekun imtahanda yalnız direktor tərəfindən verilən təqdimatda imtahanı buraxılan tələbələr iştirak edə bilər. Tələbə imtahana buraxılmadığı halda, imtahan qeydiyyat vərəqəsində "buraxılmır" qeyd olunur.

**Maddə 14. İmtahan cədvəllərinin tərtib olunması**

Tədris şöbəsi tərəfindən tərtib edilmiş, İmtahan Qərargahına təqdim edilmiş və Direktor tərəfindən təsdiq olunmuş imtahan cədvəlləri hər sessiyadan 7 (yeddi) iş günü qabaq tələbələrə çatdırılmalı, elanları lövhəsindən asılmalı və kollecin internet səhifəsində yerləşdirilməlidir.

**Maddə 15. İmtahan vərəqlərinin yazılması və yoxlanılması qaydaları**

15.1. Tələbələr imtahan tapşırıqlarının cavablarını göy rəngli qələmlə yazmalı, müəllimlər isə imtahan işlərini qırmızı rəngli qələmlə yoxlamalıdır. Karandaşdan istifadə etmək qəti qadağandır (elektron imtahan istisnadır);

15.2. Çox seçimli imtahan suallarında bir düzəlişə icazə verilir. Bu düzəliş nəzarətçi tərəfindən təsdiq edilməlidir (elektron imtahanda düzəlişə icazə verilmir).

**Maddə 16. Aralıq qiymətləndirmə və imtahanın davametmə müddəti**

Aralıq qiymətləndirilmənin keçirilməsi üçün bir qayda olaraq, 2 akademik saat vaxt ayırılır. Yekun imtahanın davametmə müddəti 3 akademik saatdır. Ayrı-ayrı hallarda fənnin xüsusiyyətindən asılı olaraq, müəllimin təklifi ilə bu müddət artırıla bilər və bu barədə imtahan tapşırıqlarında öz əksini tapmalıdır.

**Maddə 17. İmtahan nəticələrinin toxunulmazlığı və aliliyi**

İmtahanın nəticələrini hər hansı şəkildə təhrif edən hər bir şəxsə qarşı inzibati tədbir görülür.

**IV Fəsil. Qiymətləndirmə formaları**

MTK-da aralıq (tədqiqat və təqdimat istisna olmaqla) və yekun qiymətləndirməyə yazılı, test, şifahi formalarda təşkil oluna bilər.

**Maddə 18. Yazılı qiymətləndirmə forması**

**18.1.** Hər həftə keçilən dərs üçün (bir və daha artıq mövzu ola bilər) 3 sual fənn müəllimi tərəfindən müəyyənləşdirilir;

**18.2.** 3 sual hər həftə tədris olunan dərslərə aid: 1-i asan, 1-i orta, 1-i çətin olmaqla hazırlanır;

**18.3.** Suallar Bloom taksonomiyasına uyğun olaraq hazırlanması arzu olunandır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir);

**18.4.** Ümumilikdə 15 həftə (yekun imtahan) üçün 15 x 3 = 45 sual (minimum) hazırlanır. Əgər fənn üçün əvvəlki illərdə bənzər şəkildə sualların tərtibi həyata keçirilibsə, o zaman cari tədris ilində 30 sual (10 asan, 10 orta, 10 çətin) tərtib olunur;

**18.5.** Aralıq qiymətləndirməyə 8-ci (və ya 9-cu tədris həftəsində) təşkil olunacağı üçün 7 həftəni əhatə edən mövzulardan suallar hazırlanır. 7 x 3 = 21 (minimum) sual hazırlanır;

**18.6.** Yekun imtahan və aralıq qiymətləndirmə sual vərəqələri variantlı (gizli variantda ola bilər) olaraq hazırlanacaq (elektron imtahanda sistem tərəfindən suallar avtomatik olaraq bölüşdürülür);

**18.7.** Yekun imtahanda 45 sual (minimum) içindən, hər biri ayrı mövzudan olmaqla 2-si asan, 2-si orta, 1-i çətin olmaqla 5 sual seçilib, hazırlanacaq variantlı imtahan kağızlarına qeyd olunması tövsiyə olunur (elektron imtahanda sistem tərəfindən suallar avtomatik olaraq bölüşdürülür);

**18.8.** Hər sualın qiymətləndirilməsi 0-10 bal (bəzi hallarda dəyişdirilə bilər) arasında olmaqla fənn müəllimi tərəfindən aparılacaqdır.

**Maddə 19. Test qiymətləndirmə forması**

**19.1.** Hər həftə keçirilən dərs üçün (bir və daha çox mövzu ola bilər) 10 test sualı fənn müəllimi tərəfindən müəyyənləşdirilir;

**19.2.** 10 test sualı hər həftə tədris olunan dərslərə aid olmaqla 3-ü asan, 4-ü orta, 3-ü çətin hazırlanır;

**19.3.** Test sualları Bloom taksonomiyasına uyğun olaraq hazırlanmağa çalışılır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil etmə bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir).

**19.4.** Ümumilikdə 15 həftə (yekun imtahan) üçün 15 x 10 = 150 test sualı hazırlanır. Əgər fənn üçün əvvəlki illərdə bənzər şəkildə sualların tərtibi həyata keçirilibsə, o zaman cari tədris ilində 90 test sualı (30 asan, 30 orta, 30 çətin) tərtib olunur.

**19.5.** Aralıq qiymətləndirməyə 8-ci tədris həftəsində təşkil olunacağı üçün 7 həftəni əhatə edən mövzulardan ibarət testlər hazırlanır: 7 x 10 = 70 (minimum) test sualı hazırlanır.

**19.6.** Yekun imtahan və aralıq qiymətləndirmə kağızları variantlı (minimum 4 variantda hazırlanacaq və gizli variantda ola bilər) olaraq hazırlanacaq. (elektron imtahanda sistem tərəfindən suallar bölüşdürülür).

**19.7.** Aralıq qiymətləndirmədə 70 sual içindən seçim edilərək (seçim edilərkən hər həftə tədris edilən mövzulardan 1 çətin, 1 orta və 1 asan sual salınmasına diqqət ediləcək) 30 suallıq (bəzi hallarda dəyişdirilə bilər) test kağızları hazırlanacaq.

**19.8.** Yekun imtahanında 150 sual (minimum) içindən seçim edilərək (seçim edilərkən hər həftə tədris edilən mövzulardan 1 çətin, 1 orta və 1 asan sual salınmasına diqqət ediləcək) 50 suallıq test kağızları hazırlanacaq.

**19.9.** Hər bir test sualının doğru cavablandırılması bir bal (bəzi hallarda dəyişdirilə bilər) olaraq qiymətləndiriləcək.

**Maddə 20. Şifahi qiymətləndirmə forması (elektron imtahan sistemi istisnadır)**

**20.1.** Fənn müəllimi fənnin kredit və saat miqdarına uyğun olaraq suallar hazırlayır: (fənnin mühazirə saatı) x 2 = sual sayı.

**20.2.** Şifahi suallar Bloom taksonomiyasına uyğun olaraq hazırlanmağa çalışılır (asan suallar yadda saxlama və anlama bacarığını ölçməli, orta çətinlikdə olan suallar tətbiq və təhlil etmə bacarığını ölçməli, çətin suallar isə qiymətləndirmə və yaratma bacarığını ölçməlidir).

**20.3.** Hazırlanan suallar tələbə sayına uyğun olaraq bilet formasında tərtib olunur.

**20.4.** Aralıq qiymətləndirmə üçün hazırlanan biletlər 3 sualdan ibarət olur.

**20.5.** Yekun imtahan üçün hazırlanan biletlər 5 sualdan ibarət olur.

**20.6.** Hər sualın qiymətləndirilməsi 0-10 bal arasında olmaqla fənn müəllimi tərəfindən aparılacaqdır.

**20.7.** Bu qiymətləndirmə formasının sadəcə şifahi izahat tələb edən fənnlər üçün istifadəsi məqsədə uyğundur.

**V Fəsil. İmtahan prosesi**

**Maddə 21. Ümumi tələblər**

**21.1.** İmtahan tələbənin tənn üzrə bilik və bacarıqlarını yoxlamaq məqsədilə keçirilir. Məqsədə uyğun olaraq, imtahan zamanı tələbə heç bir kənar köməklikdən istifadə etməməlidir.

**21.2.** Hər bir tələbə imtahan qaydalarına dəqiq riayət edilməsinin vacibliyini dərk etməli, qadağan olunmuş hərəkətlər etməməli və ya buna cəhd göstərməməlidir.

**21.3.** Tələbə imtahan qaydalarını əvvəlcədən bilməlidir. Qaydaları bilməməsi tələbəni qaydaların pozulmasından irəli gələn cəzalardan azad etmir.

**21.4.** Bütün tələbələr qaydalarla əvvəlcədən tanış olmalı və imtahanda iştirak vərəqini imzalamalıdır. İmtahanda iştirak vərəqini imzalayan tələbələr qaydalarla tanış olduqlarını təsdiqləyir.

**Maddə 22. İmtahan tarixi, saatı və yeri**

**22.1.** İmtahan günləri və saatları qeyd olunmuş cədvəl MTK-nın elan lövhəsində asılır. Tələbə imtahan vaxtını əvvəlcədən öyrənməlidir.

**22.2.** İmtahan cədvəli yalnız İmtahan Qərargahının sədrinin tövsiyəsi və tədris işləri üzrə direktor müavinin razılığı ilə direktor tərəfindən dəyişdirilə bilər. Nəzarətçilər imtahan vaxtının dəyişdirilməsinə dair tələbələrin sorğularını həll etmirlər.

**22.3.** Bir qayda olaraq, tələbənin yekun imtahan cədvəlində bir gündə yalnız bir fəndən imtahan verilməsi nəzərdə tutulur. Tədris qrafikinə uyğun hərəkət edən tələbələr üçün yekun imtahanlar arasında ən azı 2 gün fasilə olmalıdır. İstisna hallarda tədris qrafikindən geri qalan tələbələr 2 gün ardıcıllıqla hər gün 1 fəndən imtahan verə bilər.

**22.4.** İmtahanın keçirilməsi qeyri-mümkün olduqda direktor imtahan cədvəlini dəyişdirə bilər. Bu halda imtahan elan olunmuş vaxtdan əvvələ təyin edilə bilməz.

**Maddə 23. İmtahanda iştirak etmək üçün lazım olan sənədlər**

**23.1.** Bir imtahana gələn tələbə nəzarətçilərə tələbə biletini (əgər tələbə bileti hazır deyilsə, şəxsiyyəti təsdiq edən sənədi) təqdim etməlidir. Tələbə bileti imtahanın sonunadək tələbənin oturduğu stolun üstündə olmalıdır

**23.2.** Tələbə biletini təqdim etməyən tələbələr imtahana buraxılmır.

**Maddə 24. İmtahanların keçirilməsinə məsul şəxslər**

**24.1.** İmtahanı keçirən şəxslər (İmtahan Qərargahı və nəzarətçilər) imtahanın keçirilməsinə dair tam səlahiyyətlərə malikdirlər. Onların qərarlarına görə izahatlar verilmir, qərarlar müzakirə olunmur və apellyasiya qəbul edilmir.

**24.2.** Şifahi imtahanlarda imtahan götürən müəllimlərin sayı 2-dən az olmamalıdır.

**Maddə 25. Nəzarətçilər**

**25.1.** İmtahan otaqlarında imtahan prosesinin gedişinə nəzarət etmək məqsədi ilə nəzarətçilər təyin olunur. Nəzarətçilərin əsas vəzifələri İmtahan Qaydalarının tələblərinə uyğun olaraq həyata keçirilməsinə nəzarət etməkdir. İmtahanlara nəzarət zamanı nəzarətçilər obyektivliyi, ədaləti və qərəzsizliyi təmin etməlidirlər. Onların verdiyi qərarlar aydın, birmənalı və əsaslandırılmışolmalıdır.

**25.2.** Bir imtahan otağında ən azı 2 (iki) nəzarətçi (baş nəzarətçi və nəzarətçi) olmalıdır. Baş nəzarətçi nəzarətçilərə rəhbərlik edir, eyni zamanda özü də nəzarətçi funksiyalarını icra edir.

**25.3.** Kafedra ştat və yarımştat müəllimlərini (həmçinin əvəzçiliklə) dərs dediyi qrup sayına uyğun olaraq imtahanlara nəzarətə cəlb edə bilər.

**Maddə 26. Nəzarətçilərin səlahiyyətləri**

**26.1.** Nəzarətçinin imtahan qaydalarını pozmuş tələbəyə qarşı İmtahanın keçirilmə Qaydalarında nəzərdə tutulmuş cəza tədbirlərini tətbiq etmək hüququ var. Nəzarətçilər imtahandakı pozuntu halları haqqında protokol tərtib etməlidirlər. Protokolda həm baş nəzarətçinin, həm də otaq nəzarətçilərinin imzaları əks olunmalıdır;

**26.2.** Nəzarətçinin kollec rəhbərliyindən, nizam-intizam komissiyasının üzvlərindən, İmtahan Qərargahının üzvlərindən başqa, hər hansı bir şəxsi imtahan otağına buraxma səlahiyyəti yoxdur.

**Maddə 27. Baş nəzarətçi və nəzarətçilərin vəzifələri**

**27.1.** İmtahanın başlamasına 3 dəqiqə qalmış, baş nəzarətçi Qərargahdan zərfə və ya qovluğa qoyulmuş imtahan vərəqləri toplusunu, tələbələrin siyahısını, fənn qiymət cədvəlini (siyahıda imtahana buraxılmayan tələbələrin adları əvvəlcədən Tyutor tərəfindən qeyd olunur), imtahan qaydaları haqqında sənədləri, protokol formalarını, boş cavab vərəqlərini qəbul edir. (Elektron imtahan sistemində imtahan başlamasına bir saat qalmış, baş nəzarətçi kompüterlərdən nasazlığın olub-olmaması yoxlayır, 30 dəqiqə qalmış, tyutor tələbələrin siyahısını, buraxılmayan tələbələrin adlarını əvvəlcədən qeyd olunduğu fənn qiymət cədvəlini, imtahan qaydaları haqqında sənədləri, protokol formalarını qəbul edir.)

**27.2.** Nəzarətçilər imtahanlara bu Qaydalara uyğun nəzarət edirlər və aşağıdakı halları gözləyir:

**27.2.1.** İmtahanlar əvvəlcədən müəyyən edilmiş auditoriya, tarix və saatda aparılır (Elektron imtahanlar üçün nəzərdə tutulmuş otaqlarda);

**27.2.2.** İmtahanın vaxtında başlanması üçün nəzarətçilər müəyyənləşdirmiş imtahan vaxtından ən azı 30 dəqiqə əvvəl imtahanın keçiriləcəyi otaqda (akt zalında) olmalıdırlar (Elektron imtahanlar üçün nəzərdə tutulmuş otaqlarda);

**27.2.3.** Nəzarətçilər imtahanın tələb olunan qaydalara uyğun olaraq keçirilməsini təmin edirlər. Bununla yanaşı, imtahan prosesi imtahanların təşkil olunduğu zallarda quraşdırılmış müşahidə kameraları vasitəsilə izlənilir;

**27.2.4.** İmtahan keçirilən otağa təyin edilmiş məhsul şəxs və nəzarətçilər imtahan müddətində vacib olmadığı halda kənara gedə bilməz və başqa imtahan otaqlarına daxil ola bilməzlər;

**27.2.5.** İmtahan zalına tələbələrin yoxlanılaraq buraxılması nəzarətçilər tərəfindən həyata keçirilir. İmtahanda yalnız Tyutor tərəfindən hazırlanan siyahıda adları yazılan tələbələr iştirak edə bilərlər;

**27.2.6.** Nəzarətçi tələbələrin tələbə biletini (istisna hallarda şəxsiyyətini təsdiq edən sənədləri) yoxlayır, imtahanda nizam-intizama riayət olunmasına diqqət edir, tələbələrin yerləşdirilməsinə kömək edir (zərurət olduğu halda imtahan vərəqələrinin paylanması, toplanması, sayılması) və imtahan müddətində nəzarətlə əlaqədar digər məsələləri həyata keçirir;

**27.2.7.** Tələbələr imtahan nəzarətçilərinin hər cür xəbərdarlıqlarına riayət etməlidirlər. Nəzarətçi lazım olduqda tələbənin oturduğu yeri dəyişdirə bilər;

**27.2.8.** İmtahan nəzarətçisi imtahanın başlama-bitmə saatını bildirir və imtahan otağında riayət edilməsi lazım olan qaydaları xatırladır;

**27.2.9.** İmtahan müddətində səlahiyyətli şəxslərin tələblərini yaxud öz aralarında imtahan prosesinin pozulmasına səbəb olacaq şəkildə danışmaqları qadağandır;

**27.2.10.** İmtahan müddətində köçürən və ya köçürməyə şərait yaradan, xəbərdarlığa baxmayaraq öz aralarında danışan tələbələr imtahan otağının nəzarətçiləri tərəfindən otaqdan xaric edirlər və protokol tərtib edilərək tələbənin imtahan nəticəsi ləğv olunur (Elektron imtahan sistemində tələbənin kompüterdə imtahan üçün nəzərdə tutulmuş səhifədən əlavə bölmələrə daxil olması qadağandır);

**27.2.11.** Nəzarətçilər köçürənlərə və ya köçürmək istəyənlərə xəbərdarlıq etmək məcburiyyətində deyillər;

**27.2.12.** İmtahan sualları imtahan otağından kənara çıxa bilməz;

**27.2.13.** İmtahan müddətində stolların üstündə və altında imtahanla əlaqədar heç bir vəsait olmamalıdır;

**27.2.14.** Tələbələrin imtahan müddətində bir-birindən qələm, pozan və sair bunun kimi başqa vəsait almaları qadağandır;

**27.2.15.** Dərsi tədris edən müəllimin müraciəti və müvafiq dekanlığın icazəsi olmadan imtahanda lüğət, hesablama xətkeşi, kalkulyator, eləcə də digər vasitələrdən istifadə qadağandır;

**27.2.16.** İmtahanın bitdiyi saatı imtahan otağının rəhbəri uca səslə bildirməlidir;

**27.2.17.** İmtahanın başlanma saatından 15 dəqiqə keçdikdən və ya imtahan verəcək tələbələrin hamısı imtahan zalına daxil olduqdan sonra tələbələr imtahan kağızını təhvil verərək otağı tərk edə bilər (Elektron imtahan sistemində tələbə sistemin tələblərinə uyğun olaraq imtahanı bitirmə ardıcılığını tətbiq edir və sistemdən çıxır);

**27.3.** İmtahanın başlanmasına 30 dəqiqə qalmış, nəzarətçilər imtahan otağına gəlir, otağın vəziyyətini yoxlayır və tələbələri yerləşdirirlər. Tələbələrin yerləşdirilməsi zamanı onlara şəxsi əşyalarının qoyulması üçün yer göstərilir (Elektron imtahan sistemində tələbələr kompüter arxasında əyləşdirilir);

**27.4.** Tələbələr yerləşdirildikdən sonra nəzarətçilər onların qeydiyyatını həyata keçirirlər;

**27.5.** Qeydiyyat başa çatdıqdan sonra baş nəzarətçi imtahan qaydalarına və imtahanın xüsusiyyətlərinə dair qısa məlumat verir;

**27.6.** İmtahan təlimatı tələbələrə bildirildikdən sonra imtahan tapşırıqları olan zərf (qovluq) açılaraq imtahan vərəqələri paylanır (Elektron sistemdə tələbələrin sistemə daxil olmaları bildirilir);

**27.7.** Vərəqlərin paylanması başa çatdıqdan sonra imtahanın başlanması elan olunur, imtahan başlama vaxtı və imtahan başa çatma vaxtı lövhədə əks olunur (Elektron imtahan sistemində tələbələr sistemə daxil olduqdan sonra);

**27.8.** Nəzarətçilər imtahanın başlanmasından 15 dəqiqə gec gələn tələbələri imtahana buraxmırlar və ya imtahan qeydiyyat vərəqəsində "gəlmədi" yazırlar;

**27.9.** Nəzarətçilər imtahan otağında sakitliyi təmin etməlidirlər;

**27.10.** İmtahanın sonuna 15, 5 və 1 dəqiqə qalmış, baş nəzarətçi tələbələrə imtahanının sona yaxınlaşması haqqında xəbərdarlıq edir;

**27.11.** İmtahan başa çatdıqdan sonra nəzarətçilər imtahan işlərini toplayır və cavab vərəqlərində boş qalan yerləri "Z" işarəsi ilə qaralayıb (Elektron imtahan sistemi istisnadır);

**27.12.** Baş nəzarətçi toplanmış işləri İmtahan Qərargahına təhvil verir;

**27.13.** Baş nəzarətçi və nəzarətçilər imtahan otaqlarında aşkarlanan nöqsanlarla bağlı İmtahan Qərargahı əməkdaşlarına məlumat verməlidirlər.

**Maddə 28. Fənn müəllimi**

**28.1.** Şifahi formada təşkil olunacaq imtahanlarda fənn müəllimi iştirak etməlidir. Digər qiymətləndirmə formalarında fənn müəlliminin həmin fənnin imtahan zalında olması doğru deyil (Aralıq qiymətləndirmə istisna olmaqla);

**28.2.** İmtahan sual vərəqələrinə (sadəcə nümunə iş formasında təşkil olunan imtahanlarda) dair tələbələrin cavablandırılması məqsədi ilə fənn müəlliminin imtahanda iştirak etməsinə icazə verilir. Bu zaman fənn müəllimi 15 dəqiqə ərzində yazılı materialların düzgün oxunmasına dair tələbələrin suallarına cavab verir. Bu müddət ərzində fənn müəllimi tələbələrin fikrinə görə imtahan vərəqində olan səhv və qeyri-müəyyənlikləri şərh edir. (Fənn müəllimi sualların həll edilməsi yollarını izah edə bilməz);

**28.3.** Ehtiyac olduğu halda, İmtahan Qərargahı fənn müəllimini 2-ci nəzarətçi kimi imtahanda iştirak etməyə cəlb edə bilər;

**28.4.** Əgər tələbə imtahan tapşırığında səhv və ya uyğunsuzluq olduğunu hesab edirsə, o, suala dair şəxsi fikrini qeyd etməli və düzgün hesab etdiyi variantda suala cavab verməlidir. Tələbə daha sonra da bu barədə apellyasiya komissiyasına ərizə ilə müraciət etməlidir. İmtahan suallarında səhvlər aşkar olunarsa, bu cavabın qiymətləndirilməsində fənn müəllimi tərəfindən yazılan izahata istinad edilərək nəzərə alınır, əks təqdirdə imtahan işinə apellyasiya komissiyasında baxılır;

**Maddə 29. İmtahanın gedişi**

**29.1.** Tələbələrin imtahan verilməsi ilə bilavasitə əlaqəsi olmayan şəxsi əşyaları, o cümlədən kitab, şparqalka xarakterli qeydlər, müxtəlif yazılı vasitələr, lüğət, elektron tərcüməçi, proqramlaşdırılan kalkulyator və digər elektron cihazlarını imtahan otaqlarına gətirməsi qadağandır. İmtahan zamanı mobil telefonlardan istifadə etmək və hər hansı bir məqsədlə onlara toxunmaq qəti qadağandır;

**29.2.** İmtahan başlamamış tələbəyə şəxsi əşyaların saxlanılması üçün yer göstərilir. Tələbə şəxsi əşyalarının saxlanılmasına dair nəzarətçilərin göstərişlərini yerinə yetirməlidir, əks təqdirdə o, imtahandan xaric olunur. Tələbə nəzarətçilərin tələbi ilə üzərində olan əşyaları təqdim etməlidir. Təqdim etmədiyi halda tələbənin işi ləğv oluna bilər;

**29.3.** Nəzarətçilər tələbənin imtahan otağına gətirdiyi əşyaların saxlanması üçün məsuliyyət daşımırlar;

**29.4.** Tələbələr imtahana cədvəldə qeyd olunmuş vaxtdan 15 dəqiqə əvvəl gəlməlidirlər. İmtahana gecikən tələbələrə əlavə vaxt verilmir. İmtahanın başlanmasından on beş (15) dəqiqə keçəndən sonra gələn tələbələr imtahanda iştirak etmək hüququnu itirirlər;

**29.5.** Tələbələr imtahan başlanandan sonra 15 dəqiqə müddətində imtahan otağını tərk edə bilməzlər;

**29.6.** İmtahanda əlavə materiallardan və hesablama vasitələrindən istifadə edilməsinə icazə, fənnin xüsusiyyəti və müəllimin təklifi nəzərə alınmaqla, İmtahan Qərargahı tərəfindən verilir. Bu barədə məlumat imtahan tapşırıqlarında öz əksini tapmalıdır.

**29.7.** İmtahanda iştirak edən tələbələrin yerləşməsini nəzarətçilər müəyyən edirlər. Lazım gəldikdə nəzarətçilər tələbənin oturduğu yeri dəyişdirə bilərlər;

**29.8.** İmtahanda iştirak edən tələbələr imtahanın əvvəlində qeydiyyat vərəqəsini imzalamalıdırlar;

**29.9.** Nəzarətçilər imtahanın başlanğıcında imtahana dair təlimatları xatırladır və imtahan vərəqələrini paylayırlar. Tələbələr imtahan vərəqələrinə icazə verilməmiş toxunmamalı və onları oxumamalıdırlar (Tələbələr elektron imtahan sisteminə göstərilmiş vaxtdan əvvəl daxil olmamalıdırlar);

**29.10.** Tələbə adını, soyadını, fənnin adını və imtahan tarixini imtahan vərəqələrindəki kodlaşdırma vərəqəsində qeyd etməlidir. Tələbə bu məlumatları imtahan tapşırıqlarında və ya cavab vərəqlərində qeyd etdiyi halda imtahan işi ləğv olunur və tələbəyə "0" qiymət yazılır (Elektron imtahan sistemində sual cavablandırılarkən tələbə fərdi məlumatlarını yazmamalıdır);

**29.11.** İmtahan otağına gətirilən hər hansı bir material imtahanı keçirən şəxslərin nəzarəti altında olmalıdır. Bu tələb kalkulyator istifadə etməyə icazə olan imtahanlara aiddir. İcazəsi olmayan materialları və vasitələri imtahana gətirən tələbə qaydaları pozmuş sayılır və qaydalara uyğun olaraq imtahan işinin ləğv olunması ilə imtahandan xaric olunur;

**29.12.** İmtahan cavablarını yazmaq üçün lazım olan vərəqlər imtahan sual vərəqələrinə yapışdırılır. Cavab vərəqlərinin imtahan sual vərəqlərindən ayrılmasına icazə verilmir. Ehtiyac olarsa, nəzarətçi əlavə vərəqlər verə bilər, bu vərəqlər nəzarətçi tərəfindən imzalanır və imtahan cavablarına yapışdırılır. Tələbəyə özü ilə hər hansı vərəq gətirməsinə icazə verilmir (Elektron imtahan sistemi istisnadır);

**29.13.** İmtahan cavabları son variantda ancaq göy rəngli qələm ilə yazılmalıdır, karandaşdan istifadə etməyə icazə verilmir. Nəzarətçilər tələbələri qələmlə təmin etmir (Elektron imtahan sistemi istisnadır);

**29.14.** İmtahanın xüsusiyyətindən asılı olaraq, istifadə olunmasına icazə verilən materiallar və kalkulyatorlardan ancaq bir tələbə istifadə edə bilər, şərikli istifadəyə icazə verilmir;

**29.15.** Tələbələr imtahan otağında sakitliyə riayət etməli, qapıları səliqəli açıb-örtməli və otağı sakit şəkildə tərk etməlidirlər;

**29.16.** İmtahana son on beş (15) dəqiqə qalmış, nəzarətçi imtahanın sonu yaxınlaşdığı barədə ilk xatırlatmanı edir. Bundan sonra beş (5) dəqiqə və bir (1) dəqiqə qalanda da tələbələrə yenidən xatırlatma edir. İmtahandan sonra çatması elan olunduqdan sonra yazıların davam etdirilməsi qadağandır. Yazının davamı və ya düzəlişlərin edilməsi imtahan qaydalarının pozuntusu hesab edilir. Bu halda nəzarətçi işi ləğv edə bilər (Elektron imtahan sistemində nəzarətçinin göstərişinə əsasən göstərilən saatda sistem bağlanmalıdır);

**29.17.** İmtahan başlandıqdan sonra tələbələr imtahan otağını müvəqqəti tərk edə bilməzlər;

**29.18.** İmtahan keçirilən otaqlarda, İmtahan Qərargahının icazəsi ilə əlavə videoçəkiliş aparıla bilər;

**29.19.** Nəzarətçi imtahanın başlama və bitmə vaxtını yazı taxtasında və ya divarda əks etdirərək elan etməlidir. Nəzarətçi vaxta nəzarət edən yeganə şəxsdir. Təyin edilən vaxtdan sonra tələbənin imtahan işini davam etdirməsi qadağandır;

**29.20.** İmtahan işini təhvil verən tələbə imtahan otağını tərk etməlidir;

**29.21.** İmtahan qaydalarını pozduğuna görə işin imtahan işi ləğv olunmuşsa, həmin imtahanın təkrar verilməsinə icazə verilmir;

**29.22.** İmtahan işlərinin yoxlanılmasında obyektivliyi təmin etmək məqsədi ilə imtahan başa çatdıqdan sonra işlər İmtahan Qərargahının əməkdaşları tərəfindən şifrlənir (Elektron imtahan sistemində birbaşa şifrlənir);

**29.23.** Nəzarətçi, uyğun maddələrdə qeyd olunanlardan əlavə, aşağıdakı hallarda da tələbəni imtahana xaric etmək və işini ləğv etmək hüququna malikdir:

**29.23.1.** Başqa tələbənin əvəzinə və ya başqasının onun əvəzinə imtahan vermək cəhdləri (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri tətbiq oluna bilər);

**29.23.2.** İmtahan suallarının bir qisminin və ya bütövlükdə hər hansı bir qeyri-qanuni yolla əldə edilməsi halları (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri tətbiq oluna bilər);

**29.23.3.** Hər hansı bir əlavə vəsaitdən icazəsiz istifadə etmək və ya buna cəhd etmək;

**29.23.4.** İmtahanın keçirilməsinə maneəçilik törətmək cəhdləri;

**29.23.5.** Başqasına məsləhət vermək və ya almaq cəhdləri, imtahan tapşırığının məzmununun imtahan zamanı müzakirəsi, imtahan otağını tərk edənədək tələbələr arasında hər hansı bir formada ünsiyyətin olması;

**29.23.6.** İmtahan tapşırığının başqa tələbəyə göstərilməsi, verilməsi, imtahan otağından çıxardılması və ya bunlara cəhd edilməsi;

**29.24.** Nəzarətçilər qaydalarda öz əksini tapmamış digər oxşar hallarda da tələbələrə qarşı müvafiq cəza tədbirləri tətbiq edə bilərlər.

## VI fəsil. Apellyasiya qaydaları

### Maddə 30. İmtahan nəticələrinə etiraz

**30.1.** Apellyasiya imtahan nəticəsinə görə verilə bilər. Tələbə imtahan nəticəsindən narazı olduğu halda, nəticələr elan edildiyi gündən etibarən 3 (üç) iş günü ərzində direktora apellyasiya ərizəsi ilə müraciət edə bilər. Bu halda xüsusi komissiya yaradılır, imtahanın nəticəsi ləğv edilir, iş komissiya tərəfindən yenidən yoxlanılır və qiymətləndirilir;

**30.2.** Apellyasiyaya müraciət etmiş tələbənin öz işinə baxmasına icazə verilir;

**30.3.** Apellyasiya komissiyası tələbənin işini araşdırdıqdan sonra öz təklifini aşağıdakı sənədlərlə birlikdə İmtahan Qərargahı və tədris şöbəsinə təqdim edir:

- komissiya iclasının protokolu;
- tələbənin ərizəsi;
- fənn müəlliminin yazılı izahatı;
- yoxlanılan imtahan işi;
- fənnin qiymət cədvəli.

**30.4.** Komissiyanın təklifi direktor tərəfindən təsdiq edildikdən sonra, tələbənin əvvəlki qiyməti ləğv edilir, onun üçün yeni qiymət cədvəli tərtib olunur, düzəlişlər ora daxil edilir və direktor tərəfindən imzalanır. Bu qiymət cədvəli əsas qiymət cədvəlinə əlavə edilir.

## VII Fəsil. Təkrar imtahanlar

### Maddə 31. Təkrar imtahanlar

**31.1.** Tələbələrin semestr imtahanlarını təyin olunmuş vaxtda vermələri ciddi şəkildə təmin edilməlidir;

**31.2.** Üzrlü səbəbdən (tələbə yoluxucu xəstəliyə yoluxduqda və ya hərəkət fəaliyyətini itirdikdə) yekun imtahanda, o cümlədən aralıq qiymətləndirmədə iştirak etməyən və bu barədə rəsmi sənəd təqdim edən tələbələrə bir dəfə ödənişsiz təkrar imtahan vermək imkanı yaradılır;

**31.3.** Hər hansı bir digər səbəbdən yekun imtahanda vaxtında iştirak etməyən tələbələrə həmin fənn üzrə nəzərdə tutulmuş kredit qiymətinin 25%-ni ödəmək şərti ilə bir dəfə təkrar imtahan verməyə icazə verilir;

**31.4.** Hər hansı bir digər səbəbdən aralıq qiymətləndirmədə iştirak etməyən və üzrlü olduqları direktor tərəfindən qəbul edilməyən tələbələrin aralıq qiymətləndirmə balı 0 ("sıfır") hesab olunur, tələbənin imtahana qədər balı bundan asılı olaraq hesablanır;

**31.5.** Tələbəyə hər semestr ən çox 2 (iki) fəndən (üzrlü səbəb istisna olmaqla) təkrar imtahan verməyə icazə verilir. Bu fənləri imtahan vermək istəyən tələbə özü müəyyənləşdirir;

**31.6.** Müəyyən olunmuş əlavə müddətdə də hər hansı bir səbəbdən imtahanlarda iştirak etməyən tələbələr həmin fənlər üçün yenidən qeydiyyatdan keçərək təhsil haqqı ödəməli və fənləri yenidən dinləməlidirlər;

**31.7.** Tyutor müvafiq fənlər üzrə təkrar imtahan vermək üçün müraciət edən tələbələrin siyahılarını İmtahan Qərargahına təqdim edir;

**31.8.** Təkrar imtahan qış və yay imtahan sessiyası başa çatdıqdan sonra 10 gün müddətində keçirilir;

**31.9.** Təkrar imtahan cədvəli Tyutor tərəfindən müəyyən edilir. Hər hansı bir fəndən təkrar imtahan vermək istəyən tələbə imtahan gündəmindən ən az 7 (yeddi) gün əvvəl direktora ərizə ilə müraciət etməlidir;

**31.10.** Təkrar imtahan (o cümlədən aralıq qiymətləndirmə) keçirildikdən sonra 2 (iki) iş günü müddətində nəticələr yoxlanılır;

**31.11.** Nəticələr təkrar imtahanın qiymət cədvəlində öz əksini tapır, fənn müəllimi tərəfindən imzalandıqdan sonra fənn üzrə qiymət cədvəli ilə birlikdə saxlanılır;

**31.12.** Tələbə bir semestrdə ən çox 2 (iki) fənn üzrə təkrar imtahan verə bilər.

## VIII Fəsil. Yekun müddəalar

### Maddə 32. İmtahan Qaydalarının həyata keçirilməsi

**32.1.** İmtahan Qaydalarının həyata keçirilməsi direktor nəzarət edir;

**32.2.** İmtahan Qaydalarında əlavə və dəyişikliklər Mingəçevir Turizm Kollecinin Pedaqoji Şurasında müzakirəyə çıxarılır və Pedaqoji Şuranın qərarı ilə təsdiq olunur.

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi Pedaqoji Şurasının "25" noyabr 2022-ci il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).